# Tolerant Azərbaycan gənci

Ölkəmizdə formalaşmış tolerantlığın dərin tarixi və mədəni kökləri var. Ümummilli lider Heydər Əliyev bu prosesi çox doğru izah edirdi: “Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur”.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının çoxəsrlik multikultural ənənələrinin qorunması sahəsində həyata keçirdiyi siyasi istiqamət hazırda dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Prezident İlham Əliyev dəfələrlə yerli və beynəlxalq tədbirlərdə çıxışlarında qeyd edib ki, Azərbaycanda tolerantlıq dövlət siyasətinin tərkib hissəsi olmaqla bərabər, həyat tərzidir. Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verir və fond tərəfindən “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır, mövzuya aid çoxlu sayda mühüm yerli və beynəlxalq tədbirlər təşkil olunur. Məhz ona görə də bu gün hər bir Azərbaycan gənci bu istiqamətdə öz sahəsi üzrə yaxından fəaliyyət göstərməli, təklif və layihələrlə çıxış edərək öz dəstəyini verməlidir.



Belə təşəbbüslərdən biri də “Tolerant Azərbaycan gənci” layihəsidir. Layihənin rəhbəri Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, Rəssamlıq Akademiyasının doktorantı, Rəssamlar İttifaqının üzvü, Prezident təqaüdçüsü Dilarə Müzəffərlidir. Bu layihə ölkəmizdə mövcud olan milli, etnik, irqi, dini tolerantlığın geniş ictimaiyyətə çatdırılmasına yaradıcı gənclərin cəlb olunması, bununla yanaşı, Azərbaycanın tolerantlıq modelinin dünyanın inkişaf etmiş ölkələrinə nümunə kimi təqdimatı məqsədi daşıyır. Layihə çərçivəsində ilk dəfə yaradıcı gənclər arasında tolerantlıq mövzusunda təsviri sənətin rəngkarlıq, qrafika, heykəltəraşlıq növləri üzrə açıq müsabiqə elan olunmuş və təqdim edilən 200-ə yaxın əsərdən təxminən 100-dən çoxu münsiflər heyəti tərəfindən müsbət qiymətləndirilərək Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ərəfəsində Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda nümayiş etdirilmişdir.

Onu da vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti Yanında Gənclər Fondunun VI qrant müsabiqəsi çərçivəsində fondun maliyyə dəstəyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilati dəstəyi ilə sənətşünas Dilarə Müzəffərlinin müəllifi və rəhbəri olduğu “Tolerant Azərbaycan gənci” müsabiqə-sərgi layihəsi həyata keçirilmişdir.

Sülh, birlik, dostluq ideyalarını özündə birləşdirən I Avropa Oyunlarının müsəlman ölkəsi - Azərbaycanda keçirilməsinin qərara alınması dünya ictimaiyyətinin ölkəmizə olan böyük inamının göstəricisi idi. “Bakı 2015” I Avropa Oyunları zamanı Atletlər kəndində təşkil olunan təsviri sənət sərgisi məhz “Tolerant Azərbaycan gənci” sərgisi olmuşdur.

Qeyd edək ki, “Tolerant Azərbaycan gənci” layihəsinin rəhbəri Dilarə Müzəfferli 2015-ci il oktyabr ayının 23-28-də Fransanın paytaxtı Paris şəhərində UNESCO-nun Baş Qərargahında keçirilən 9-cu UNESCO Gənclər Forumunda Azərbaycan gənclərini təmsil etmişdir. D.Müzəffərli forum çərçivəsində UNESCO-nun Sosial və Humanitar Elmlər Sektorunun təşkil etdiyi “Dialoq üçün Mobil Mədəniyyətlər” seminarında müzakirələr zamanı 16 noyabr Beynəlxalq Tolerantlıq günü ilə əlaqədar olaraq UNESCO-nun baş qərargahında bu quruma üzv ölkələrin gənc rəssamlarının əsərlərindən ibarət tolerantlıq və sülh mövzusunda təsviri sənət sərgisi keçirilməsi təklifi ilə çıxış etmişdir. Onun təklif etdiyi layihə planına əsasən, UNESCO-ya üzv olan ölkələr “Tolerant Azərbaycan gənci” layihəsində olduğu kimi, öz ölkələrinin gənc rəssamları arasında təsviri sənət müsabiqəsi keçirməli və müsabiqə nəticəsində münsiflər heyəti tərəfindən qiymətləndirilən ən yaxşı əsərlər UNESCO-nun baş qərargahında yekun sərgidə nümayiş etdirilməlidir. Bu layihənin ilk dəfə Azərbaycanda keçirildiyini nəzərə alaraq layihənin icrası zamanı dünya ölkələri tərəfindən nümunə kimi Azərbaycan modelindən istifadə edilməsi təklif olunmuşdur. Forum zamanı Dilarə Müzəfferli UNESCO-nun baş direktoru İrina Bokovaya “Tolerant Azərbaycan gənci” layihəsindən bəhs edən kataloqu göstərib layihə haqqında məlumat verimişdir. İ.Bokova layihəni böyük maraqla qarşılamış və Azərbaycan gənclərinə tolerantlığın təbliği istiqamətində həyata keçirdikləri işlərdə uğurlar arzulamışdır. Layihə rəhbəri gənc heykəltəraş Sənan Cəfərovun müəllifi olduğu “Tolerantlıq” adlı heykəli və gənc rəssam Ulya Abdullayevanın müəllifi olduğu “Ruh birliyi” adlı rəsm əsərini də UNESCO-nun muzey ekspozisiyasına hədiyyə etmişdir.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***